# Bərpa-quruculuğun uğurlu mərhələsi

**"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış 5 əsas hədəfdən biri kimi müəyyən olunub. Möhtərəm Prezidentin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiqlənən bu prioritetlərdə də ifadə olunduğu kimi, işğaldan azad olunmuş ərazilərə qayıdışın uğurla reallaşdırılması üçün dayanıqlı məskunlaşma və həmin ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çox vacibdir.**

Dövlət başçısı hesab edir ki, işğaldan azad edilmiş bölgələrdə əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi üçün ilk növbədə həmin ərazilər cəmiyyətin sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, hərtərəfli, təhlükəsiz və əlverişli həyat şəraiti yaradılmalıdır. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzura 4 gün öncə baş tutmuş səfəri məhz bu çərçivədə reallaşan, işğaldan azad olunmuş ərazilərdə müasir infrastrukturun qurulması, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlılığın təmin olunması istiqamətində dövlətin sarsılmaz iradəsinin nümayişidir. Səfər zamanı Şuşa rayonunun Daşaltı kənd məscidinin, Müalicə-Sağlamlıq Mərkəzinin, habelə "Azərişıq" ASC-nin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin, "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalının Xanabad kəndindəki heyvandarlıq kompleksinin, Ağdamda Dəmir Yolu və Avtovağzal Kompleksinin, rayonun Kəngərli kəndinin birinci mərhələsinin, kənd tam orta məktəbinin binasının, kənd körpələr evi-uşaq bağçasının, Ağdam Muğam Mərkəzinin açılışı olmuşdur. Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada, klub-icma mərkəzində, yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olma, eyni zamanda Kəngərliyə köçən sakinlərlə görüş və onlara evlərin açarlarını təqdimetmə mərasimi Böyük Qayıdışın ləyaqətli və təhlükəsiz şəkildə təmin edilməsinin ardıcıl, planlı, çevik və effektiv formada realizə edildiyini göstərdi. Bu isə işğaldan azad edilmiş ərazilərin, o cümlədən Ağdamın ölkənin iqtisadi və sosial simasında Birinci Qarabağ müharibəsindən önceki tarixi mövqeyinin nəinki bərpa edilməsi, üstəlik bu bölgələrin bütövlükdə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilməsi perspektivlərini ortaya qoyur.



Bəhruz MƏHƏRRƏMOV,
Milli Məclisin deputatı.

Möhtərəm Prezidentin işğaldan azad olunmuş ərazilərlə bağlı əsas məqsədlərindən biri həmin bölgələrin digər regionlara uyğun inkişaf səviyyəsinə malik olmasıdır. Çünki re-



gio... diy... la t... də əsildir. Dayanıqlı məskunlaşmanı və möhkəm təməl üzərində qurulan yaşayışı təmin etməklə, bölgənin ölkə üzrə iqtisadi fəaliyyətdə payını işğaldan öncəki vəziyyətə çatdırmaq və davamlı şəkildə artırmaq olar. Möhtərəm Prezidentin bu istiqamətdə qəti iradəsi, böyük quruculuqda özəl təşəbbüslərin hərtərəfli qaydada və uğurlu şəkildə təşviqi, eləcə də Ağdamda keçirilən tədbirlər fonunda da göründüyü kimi dövlət-özəl tərəfdaşlığının səmərəli inkişafı Böyük Qayıdışın uğurla davamlılığının əsas zəmanət elementlərinə çevrilir.

Təbii resurs bolluğu, o cümlədən Vətən müharibəsi və antiterror tədbirlərində qazanılan böyük Zəfər, iqtisadi və sosial sahədə əldə olunan nailiyyətlərlə formalaşan tarixi imic bu ərazilərə sərmayə cəlb etməyə imkan verməklə qayıdış prosesinin əhəmiyyətini milli çərçivələrdən çıxaracaq. Ölkə rəhbərliyinin bütövlükdə Böyük Qayıdış prosesinə xüsusi diqqəti bu ərazilərə sərmayə cəlbinə imkan verəcək və beləliklə, Böyük Qayıdış vətəndaşlarımızın iş-

...olmaqla bərabər, həm də beynəlxalq əhəmiyyətli hadisəyə çevriləcək. Nəticə etibarilə həyata keçirilən tədbirlər və reallaşdırılan infrastruktur layihələri, regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması bu çərçivədə ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, həm də işğaldan azad olunmuş ərazilərin önəmli beynəlxalq nəqliyyat habı kimi çıxış etməsi ilə nəticələnəcək. Təbii ki, qeyd olunan bu amillər işğaldan azad edilmiş ərazilərin inkişafına birmənalı şəkildə təkan verməklə öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışını daha da stimullaşdıracaq və bu bölgələri Azərbaycanın ən inkişaf etmiş regionlarından birinə çevirəcək. Keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarında dayanıqlı və eyni zamanda könüllü formada məskunlaşması isə böyük tarixi, hərbi-siyasi qələbələrimizin əbədiləşdirilməsi üçün həlledici olacaq. Möhtərəm Prezidentin may ayının 10-da Şuşa, Xocalı və Ağdama səfəri çərçivəsində iştirak etdiyi tədbirlər də göstərir ki, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışının təmin edilməsi və bu regionun ölkənin ən abad guşələrindən birinə çevrilməsi Ağdamın Kəngərli kəndinin simasında daha aydın görünür. Əminliklə demək olar ki, müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunması, işğaldan azad olunmuş ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasının təmin olunması artıq uğurlu praktik mərhələyə qədəm qoyub. Nəticədə İkinci Qarabağ müharibəsindən keçən 4 il yarım ərzində azad edilmiş bütün torpaqlarda geniş quruculuq-bərpa dövlətin niyyəti ilə praktik addımları bir-birini tamamlayır. Ağdamın Kəngərli kəndinə köçən sakinlərlə görüşdə dövlət başçısının da ifadə etdiyi kimi, artıq Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, sürətli bərpa işləri də onu göstərir ki, tezliklə bütün keçmiş köçkünlər öz torpaqlarına qayıdacaqlar.

Respublika .- 2025.- 14 may (№98).- S.12.